BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2008

# SƏHNƏLƏŞDİRİLMİŞ UŞAQ PYESLƏRİ

**S.Ə.MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universiteti*

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında, həm də A.Şaiq adına Kukla Teatrında tamaşaya qoyulan pyeslər uşaq və gənclərə məxsus dramaturgiyanın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərmişdir.

A.Şaiq adına Kukla teatrında müvəffəqiyyətlə tamaşaya qoyulan Ə.Abbasovun "Keçinin qisası" M.Dilbazinin "Göyçək Fatma", R.Heydərin "Göylər qonağı",Ə.Səmədovun "Artıq tamah baş yarar", "Əzablı günlərin sonu", Ə.Məmmədovun "Cəsur uşaqlar", M.Atəşin "Cırtdan", T.Kazımovun "Hamam, hamam içində", F.Məmmədovun "Ac qulağım,dinc qulağım" və digər yazıçıların pyesləri, eyni zamanda dünya xalqlarından edilmiş tərcümə əsərləri buna sübutdur.

Bu pyeslər mövzu cəhətdən müxtəlif və rəngarəngdir. Folklordan gələn mövzular, müasir uşaqların həyatına dair mövzular, uşaqların zirəkliyi və qoçaqlığı, hiyləgərliyin və tənbəlliyin aqibəti, dostluq və yoldaşlığın qüdrəti və s. ayrı-ayrı tipik surətlərin timsalında səhnədə canlanmışdır.

Gənclərin estetik tərbiyəsinə xidmət edən daha ciddi, sanballı, müasir problemləri əhatə edən, ataların mübarizəsini və arzularını ifadə edən geniş süjetli pyeslər də yaranmışdır ki, onlar da Gənc Tamaşaçılar Teatrında oynanmış və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdı.

Əsası ədəbiyyatımızda C.Məmmədquluzadə və A.Şaiq tərəfindən qoyulmuş təmsil-pyeslər, nağıl-pyeslər, fantastik-pyeslər teatrın repertuarını zənginləşdirmişdi. Pyeslərin mühüm hissəsinin mövzusu müasir həyatdan alınmışdı. Burada müasir gəncliyin həyatı, fəaliyyəti, əməl və arzuları, sevgisi, dünyabaxışı, həyata münasibəti, fərdi davranışı, təhsil və tərbiyəsi, əməyi və işi təsvir olunmuşdu.

Teatr yetişməkdə olan gənc nəslin kollektivçilik, əməyə və vətənə məhəbbət ruhunda tərbiyə olunmasında, onlara yüksək əxlaqi keyfiyyətlər aşılamaqda çox kömək etmişdir.

1960-1970-ci illərdə Gənc Tamaşaçılar Teatrının repertuarı çox zəngin və maraqlı olmuşdur. Bu dövrdə S.Vurğunun eyni adlı poeması əsasında İ.Coşqunun səhnələşdirdiyi "Komsomol", Q.Rəsulovun "Əlvida Hindistan", "Tülkü Məkkəyə gedir" (İ.Coşqun), "Yanmış planetin sərvətləri" (İ.Gəncəli),"Ürək yanarsa" (T.Məmmədov)," Xoruz" (F.Azayev), "Aydınlığa doğru" (S.Dağlı), "Zəng səsləri" (R.Heydər), "Dovşanın ad günü" (X.Əlibəyli) əsərləri müvəffəqiyyətlə oynanılmışdı. Teatr öz gözəl ənənəsinə sadiq qalaraq bu və ya başqa yolla dövrün ən zəruri məsələlərinə toxunur, müasir tələblərə cavab verir, tamaşaçıların qəlbinə, hissinə, şüuruna təsir göstərir, onları əməyə məhəbbət, xalq işinə inam və

vətənpərvərlik ruhunda tərbiyə edir.

1970-1980-cı illərdə Gənc Tamaşaçılar Teatrı qarşısına daha yüksək vəzifələr qoymuşdur. Kollektiv yeni səy və coşğunluqla əlvan repertuar yaratmaq uğrunda axtarışlara başlamışdır. Repertuar məsələsi həmişə teatrın mühüm işi olmuşdur. Dünya miqyasında ideoloji mübarizənin kəskinləşdiyi bir vaxtda bu daha ciddi əhəmiyyət kəsb edirdi. Gənclər teatrında isə bu xüsusilə vacib məsələ idi. Çünki onun tamaşaçısı əlinə yenicə qələm almış birinci sinif şagirdi ilə yanaşı məktəblə vidalaşmağa hazırlaşan onuncu sinif şagirdi idi. Belə bir vəziyyət isə öz işini mühüm üçlüyün – ailə-məktəb-teatr birliyi əsasında qurmağı tələb edirdi. Teatrın repertuarında bugünkü məktəbi düşündürən, problem məsələləri əks etdirən pyeslər, öz aləmi, baxışları olan yeniyetmələr üçün müasir və klassik əsərlər,kiçik uşaqlar üçün nağıl-fantastik pyeslər əsas yer tutmalı idi. Hər bir tamaşa uşaqlara sevinc gətirməli, onlarda nikbinlik, gümrahlıq, möhkəm əhval-ruhiyyə doğurmalıdır. Bütün bunlar teatrın repertuarının rəngarəngliyini tələb edirdi.

Bu illərdə tamaşaya qoyulmuş “Söhrab və Rüstəm” (İ.Coşqun), ”Aycan”(X.Əlibəyli), ”Təzə şagird” (Q.İlkin), ”Mənim nəğməkar bibim” (Ə.Əylisli), ”Həyatın astanasında” (C.Məmmədov), ”Unutmayın” (Y.Əzimzadə) pyesləri də öz mövzu və bədiiliyi ilə diqqət mərkəzində duran əsərlərdəndir. Bunlar içərisində müharibə mövzusuna həsr olunmuş Azərbaycan kəndinin müharibə dövründəki vəziyyətini, camaatın yaşayışını, sevincli-fərəhli günlərini təsvir edən “Mənim nəğməkar bibim” və “Gənc qvardiya” təşkilatının üzvü, azərbaycanlı Ə.Dadaşovun şücaətindən bəhs edən “Unutmayın” əsəri daha xarakterikdir.

“Mənim nəğməkar bibim” pyesi müharibə dövrü Azərbaycan kəndinin həyatını əks etdirir. Müharibə hər cür saflığa, təbiiliyə və müqəddəsliyə ziddir. O dünya ahəngini pozur. Müəllif bütün bunları Sadığın saflıq timsalı olan uşaqlıq dünyasının, həyat haqqındakı təmiz, ləkəsiz təsəvvürünün prizmasında əks etdirmək istəmişdir. Müəllif eyni zamanda göstərir ki, çətinlik, ağır gün insanları saf-çürük edir, onların əsl simalarını üzə çıxarır. Bu mənada pyesdə Mədinənin, Nəcəfin, Murtuzun müsbət xarakteri, Mücüşün, Abbasın, Mələməşin daxili naqisliyi yadda qalır. Bu da müəyyən qədər Sadıqla əlaqədardır. Çünki müharibə illərinin hadisələri haqqında Sadığın özünün danışığı dağınıq şəkildədir.

Y.Əzimzadənin “Unutmayın” pyesi də müharibə mövzusundadır. Müharibə illərində görünməmiş fədakarlıqlar göstərmiş “Gənc qvardiya” təşkilatının üzvü Əli Dadaşovun şücaətindən bəhs edən bu əsər faşizm üzərində qələbənin 30 illiyi münasibətilə yazılmışdır. Əlinin atası və anası müharibədən xeyli əvvəl Azərbaycandan Krasnodara köçmüş, taleyini bu yerlərə bağlamışdır. Dramaturq pyesdə azərbaycanlı ailəsinin almanlara qarşı intiqam hissini gənc qvardiyaçılarla əlaqəli şəkildə qabarıq verməyi qarşısına məqsəd qoymuşdur. Pyesdə hadisələr Əlinin və onun ailəsinin ətrafında cərəyan edir. Əsərdə Əli intiqamçıların ən fəal üzvlərindən biri kimi canlandırılmışdır. O, təşkilatın tapşırığı ilə məktəbin üstünə bayraq sancır və divarlara vərəqələr yapışdırır. Gizli təşkilatın üzvləri ələ keçdikdə ailənin təkidinə baxmayaraq, Əli imkandan istifadə etməyib evə qayıdır və almanlar tərəfindən tutulur.

Pyesdə Əsədulla kişi, arvadı, 14 yaşlı Nərgiz fəal təsvir edilmişdir. Onlar Əliyə və yoldaşlarına lazım gələndə hər cür kömək göstərirlər. Müəllif bu əsərdə böyük yaradıcılıq səyi ilə adamların faşizmə qarşı

mübarizə əzmini, bu yoldakı hər cür ağır çətinliklərə mərdliklə sinə gərmək bacarığını, bu sifətlərin xüsusilə gəncliyə məxsus olduğunu göstərir.

Gənc Tamaşaçılar Teatrında oynanılan “Məhəbbət novellası”(Şamil Xurşud və Əşrəf Hacıyev), “Sağlıq olsun” (İ.Məlikzadə),“Bir sahilin adamları” (Xalidə Hasilova) ,“Sirli dəyirman” (F.Məmmədov) pyeslərində dramaturqlar gənc nəslin mənəvi-əxlaqi problemlərindən bəhs etmişdilər.

”Məhəbbət novellası” pyesində müxtəlif ali məktəblərdə təhsil alan beş gənc – arxeoloq Vasif, həkim Firəngiz, fizik Nazim, filoloq Gülarə, tarixçi Mənsur bir tələbə gecəsində tanış olur, bu tanışlıq sonradan dostluğa çevrilir. Nazim və Gülarə, Vasif və Firəngiz bir-birini sevir və bu məhəbbətə sadiq qalacaqlarına and içirlər. Nazimlə Gülarə evlənirlər. Vasiflə Firəngizin məhəbbəti yarımçıq qalır. Firəngiz həyatın çətinlikləri qarşısında sınaqdan çıxa bilmir və öz məhəbbətini unudub, varlı bir adama ərə gedir. Lakin iki ay keçməmiş yanıldığını dərk edib ərindən ayrılır. Müəlliflər bu dramatik süjet daxilində öz qəhrəmanlarını müxtəlif vəziyyətlərdən keçirərək, insanın insan qarşısında mənəvi borcunu əks etdirmək istəmişlər. Əsərdə bütün obrazlar bu borca münasibətdə müəyyən insani zəiflik göstərir, səhvə yol verirlər.

Qəhrəmanların səhvə yol verməsini və bu səhvi dərketmə prosesini müəlliflər maraqlı hadisə fonunda ifadə etmişlər. Hadisə baş vermişdir – Firəngiz ailəsindən ayrılıb keçmiş dostlarına pənah gətirmiş, onlar isə laqeydlik və etinasızlıq göstərərək ondan öz qayğılarını əsirgəmişlər. Hətta eqoizm mövqeyindən çıxış edərək onun böhran vəziyyətini daha da mürəkkəbləşdirmişlər. Beləliklə, onsuz da həyatda büdrəmiş bir qızın ümidsizləşməsinə səbəb olmuşlar. Belə bir böhranlı vaxtda dayısı usta Murad Firəngizə rast gəlir və onu özü ilə Neft daşlarına aparır. Bununla da Firəngiz öz dostları üçün “yoxa çıxır”. Bu hadisə qəhramanların əsl simasının açılması, dəyişmə prosesinin göstərilməsi, özünüdərkin aşkarlanması üçün bir sınaq rolunu oynayır. Onlar Firəngizi ölmüş hesab edir, ona görə də bu fakt qarşısında özlərini təmizə çıxarmağa çalışırlar. Bu cəhət isə onların daxili ziddiyyətlərini daha da dərinləşdirir.

Əsərdə iki mövzu bir süjet daxilində həll olunur. Məqsədə nail olmaq üçün hər iki mövzu – məhəbbəti haqq-hesaba qurban vermək, insanın insan qarşısında cavabdehliyi bir-birini tamamlamalıdır. Şübhəsiz ki, müəlliflər buna çalışmışlar. Lakin Firəngizin yanılmasında daha çox onu əhatə edən adamlar günahkar hesab edildiyindən pyesdə onun ciddi bədii mühakiməsi üçün imkan qalmamışdır. Çünki əsərdə laqeydlik və etinasızlığın tənqidi əsas məqsəd olmuş, Firəngizin öz məhəbbətinə xəyanəti isə bunun üçün bir vasitəyə çevrilmişdir.

Beləliklə, var-dövlətə aludəçiliyin əzəli bir ehtiras kimi tənqidi əsas məqsəddir və hadisəyə aydın müəllif münasibəti hiss olunur.Firəngiz süjeti isə bununla bədii paralel təşkil edə bilmir. Çünki Firəngizin yanılması onun özünü tənqid etmək üçün deyil, daha çox başqa obrazların daxili aləmlərini açmaq üçün vasitə rolunu oynayır.

İ.Məlikzadənin “Sağlıq olsun” pyesi də öz mövzusu, dramaturji quruluşu cəhətdən dövrün maraqlı pyeslərindəndir. Əsərdə mənəvi təmizliklə əyriliyin ziddiyyəti sadə bir süjetlə ifadə olunmuşdur. Pyesin əsas qəhrəmanı Əziz ali məktəbə qəbul imtahanlarından kəsilir. Atası onun fəhləliyə getməsini lazım bilir, anası isə “oğlunu kabinetdə görmək” is-

təyir. Atasının yolu ilə getmək istəyən Əzizin arzusunun ziddinə olaraq dayısı və anası onu evlər idarəsində müdir vəzifəsinə düzəldirlər. Beləliklə, o, ailədə anası Cahanın, dayısı Lələnin həyat haqqında səhv möqeləri, işdə isə rəis Babaşovun yaramazlığı ilə qarşılaşır. Onun mənəvi təmizliyi, hadisələrə və insanlara münasibəti məhz bu qarşılaşmada meydana çıxır. Bunun üçün müəllif maraqlı bir üsuldan istifadə etmişdi: qəhrəman olduğu kimi deyil, olmadığı kimi görünür. Belə bir ənənəvi komik üsul, hadisə və obrazların daxili aləminin açılmasına, qəhrəmanın özünün xarakterinin aşkarlanmasına imkan verir. Pyesin əvvəllərində Nəcibənin "elə bil oyun oynayırsan: gah elə olursan, gah belə", sözlərinə qarşı Əziz belə cavab verir: "O baxır yerinə və adamına". Pyesin süjeti və konflikti hadisələrin məhz bu "oyun" məcrasında inkişaf etmişdir.

Dramaturqun yaratmış olduğu Əziz obrazı uşaq dramaturgiyasının maraqlı, yaddaqalan, fərdi əxlaqi keyfiyyətləri ilə seçilən surətlərindən biridir. Əziz cəsarətli və qətiyyətli olsa da,mənəviyyatımıza yoluxmuş naqisliklərə qarşı mübarizə aparmalı olduğundan ciddi çətinliklərlə qarşılaşır.Onun əsas çətinliyi Lələ və Babaşov kimi əyri,naqis mənəviyyatlı, xalqın var-dövlətini, sərvətini çalıb-çapan insanlar deyil.O,bu insanlara qarşı kifayət qədər qətiyyətlilik göstərə bilir.

1970-1980-ci illərdə "Aycan","Dovşanın ad günü" (X.Əlibəyli), "Çal-oyna" (İ.Coşğun) və.s alleqorik tamaşalar da göstərilmişdir. Bu əsərlər də bədii keyfiyyətinə, gənc nəslin humanizm ruhunda tərbiyəsinə və mənəviyyatının zənginləşməsində mühüm əhəmiyyət kəsb etmişdir. X.Əlibəyli lirik və epik şeirlərində, poemalarında uşaqlara mənəvi-əxlaqi keyfiyyətlər aşılayır. Bu cəhətdən "Meşə hakimi", "Novruz və Murtuz", "Dovşanın ad günü" poemaları maraqlıdır. Şair "Dovşanın ad günü" əsərinin süjeti əsasında eyniadlı pyes yazmışdır. Gənc Tamaşaçılar Teatrının səhnəsində bu əsərin tamaşası uğurlu olmuşdu. "Dovşanın ad günü" pyesi uşaqlara sadəlik, təvazökarlıq, nəcib hisslər aşılayır, xudbinliyə qarşı nifrət oyadır. Tamaşaya qoyulmuş "Çal-oyna" pyesi də özünəməxsus quruluşa malikdir. Nağıl-pyesdə xeyirxahlıq, zəhmətkeşlik, humanizm kimi etik problemlər qaldırılmış və uşaqlarda gözəllik, mərdlik, xeyirxahlıq, zəhmətkeşlik hissləri aşılanmışdı. Əsərin əsas qəhrəmanı nağıllardan götürülmüş İsa-Musa obrazlarının daşıdığı dramaturji funksiya yüksək ideallıq, əxlaqi saflıq, bütövlük gətirir. Burada İsa və Musadan başqa beş əsas obraz var: Ana dovşan, Bala dovşan, Tülkü, Keçi, Ceyran. Bunların hər biri öz ideya-estetik yükü olan dolğun obrazlardır. Ana dovşan obrazı daha çox yadda qalan və səciyyəvidir. Əsərin əsas kompozisiyası da Ana dovşanla bağlıdır.

Qeyd etmək lazımdır ki,haqqında danışılan bu əsərlərdə ifadə olunmuş mövzu, ideya müasir və aktualdır. Dramaturji quruluş cəhətdən müxtəlif janrları əhatə edən pyeslər qələmə alınmışdır. Bu pyeslər mövzu baxımından da müxtəlifdir: folklordan gələn mövzular, müasir uşaqların həyatına dair mövzular, uşaqların zirəkliyi və qoçaqlığı, hiyləgərliyin və tənbəlliyin aqibəti, dostluq və yoldaşlığın qüdrəti və s. ayrı-ayrı tipik surətlərin timsalında səhnədə canlandırılır. Bu surətlər vasitəsi ilə yeniyetmələr kiçik çağlarından həyatda yaxşı liə pisi, zirəklə tənbəli, ağıllı ilə ağılsızı,sadəlövhlə hiyləgəri bir-birindən seçir, yaxşılara, ağıllılara, qoçaqlara oxşamağa çalışır, pislərə, tənbəllərə ağılsızlara, hiyləgərlərə nifrət edir.

## QEYDLƏR

1.Coşğun İ. Uzaq ulduzlar. Bakı:Yazıçı 1978.
2.Coşğun İ. Yalançı dovşan. Bakı: 1981.
3.Əzimzadə Y. Unutmayın, Bakı: Gənclik, 1973.
4.Qasımov Ə. "Bir sahilin adamları", "Azərbaycan gəncləri", 10 aprel, 1980.
5.Namazov Q.Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Maarif, 1984.

## ИНСЦЕНИРОВАННЫЕ ДЕТСКИЕ ПЬЕСЫ

С.А.МАМЕДОВА

## РЕЗЮМЕ

Постановка детских пьес 70-80-х годов прошлого века привлекает содержанием темой особенностями пьес. В этих пьесах нашли художественное выражение самые важные проблемы, касающиеся детей и подростков.

## ADAPTATİON OF CHİLDREN`S PLAYS

S.A.MAMMADOVA

## SUMMARY

Prodiction of children`s plays in 70-80"th years at last century attracts by play`s theme,maintenance,peculiarities.İn these plays are reflected in literature form main problems,which interest children and teenages.